**Azadə Qadir qızı Novruzova**

**UOT:339.9;339.9:061; JEL:F10; JEL F63.**

# Müasir iqtisadi şəraitdə kənd təsərrüfatı sahəsinin inkişafının əsas perspektivləri

***Xülasə***

*Məqalə Azərbaycanda kənd təsərrüfatı sahəsinin inkişafının əsas perspektivlərinə həsr olunmuşdur. Aparılmış tədqiqatda ölkəmiz üzrə kənd təsərrüfatının müasir vəziyyəti, dövlətin bu sahənin tənzimlənməsində rolu, kənd təsərrüfat sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyaların dəyişən dinamikası və bu sahənin davamlı inkişaf istiqamətləri, təhlil olunan sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi və s. məsələlər müqayisəli halda tədqiq olunmuşdur. Həyata keçirilmiş təhlil nəticəsində Azərbaycanda kənd təsərrüfatı sahəsinin inkişafına mane olan problemlər müəyyənləşdirilmiş, onların aradan qaldırılması yolları göstərilmişdir. Tədqiqatın əsas məqsədi ölkəmizdə kənd təsərrüfatı sahəsinin inkişafının əsas perspektivlərini müəyyənləşdirməkdir. Məqalənin praktiki əhəmiyyəti ondan ibarətdir ki, son illər ölkəmizin kənd təsərrüfatı sahəsinin fəaliyyətində qeydə alınan əsas göstəricilər üzrə statistik, müqayisəli təhlillər apararaq mövcud problemləri, onların həll yollarını müəyyənləşdirmək, kənd təsərrüfatı sahəsində dövlətin tənzimləyici rolunun və ərzaq təhlükəsizliyinin yüksəldlməsi məsələlərinin zəruriliyini əsaslandırmaqdır. Tədqiqatın əsas yeniliyi kimi kənd təsərrüfatı sahəsinin dövlət tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsini, kənd təsərrüfatı məhsulları üzrə istehsalçıların bazarlara çıxışının asanlaşdırılmasını, özəl investisiyaların regionlar üzrə stimullaşdırıcı vasitələrlə cəlbini, aqrar siyasətin təkmilləşdirilməsini göstərmək mümkündür.*

***Açar sözlər:*** *investisiya, aqrar iqtisadiyyat, tənzimləmə mexanizmi, aqrar sahə, kənd təsərrüfatı, ərzaq məhsulları, iqtisadi dəstək*



## Giriş

Müasir bazar iqtisadiyyatı şəraitində dövlətlərin əsas strateji prioritetlərindən biri milli iqtisadiyyatın davamlı və dayanaqlı inkişafını təmin etməkdir. Məhz bu baxımdan milli iqtisadiyyatın bütün sahələrinin, o cümlədən kənd təsərrüfatı sahəsinin inkişafını təmin etmək zəruri hesab olunur. Azərbaycanda vətəndaşların ekoloji baxımdan təmiz kənd təsərrüfatı məhsulları ilə təmin olunması, bu sahədə fəaliyyət göstərən istehsalçıların gəlirlərinin artırılması, regionlarda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi əhəmiyyətli məsələlərdən hesab olunur. Kənd təsərrüfatı sahəsi vasitəsilə vətəndaşların gündəlik ərzaq və yeyinti məhsullarına olan tələbatının təmin edilməsi həyata keçirilir. Məhz buna görə də kənd təsərrüfatı sahəsində qiymət siyasəti üzrə dövlət tənzimlənməsinə daim ehtiyac vardır. Ölkəmizdə bazar iqtisadiyyatının bütün sahələrində olduğu kimi, bu sahədə də keyfiyyət və səmərəliliyə əsaslanan iqtisadi islahatlar uğurla həyata keçirilməkdədir (Verdiyev,2000). Müasir inkişaf etmiş ölkələrin hər birinin milli iqtisadiyyatının strukturunda aqrar sahənin digər sahələrlə müqayisədə payının az olması müşahidə olunur. Nəzərə almaq lazımdır ki, vətəndaşlarının böyük bir qismi kənd təsərrüfatında işləyən və milli gəlirdə aqrar sahənin payının yüksək olduğu ölkələr də vardır. Onlar əsasən inkişaf səviyyəsi yüksək olmayan dövlətlər hesab olunur (Alıyev, 2007). Regionlarda kənd təsərrüfatı üzrə fəaliyyət göstərən istehsalçıları bəzən daxili və xarici bazarlarda müşahidə olunan qiymətlər təmin edə bilmir. Bu zaman kənd təsərrüfatı məhsul istehsalçılarının növbəti il üçün həmin məhsulun istehsalına marağı azalır (Quliyev,2015).

*©Azadə Qadir qızı Novruzova i.f.d.,dos. AzDİU, "Nəzəri və praktiki iqtisadiyyat" kafedrası. E-mail: anovruzova@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

## Əsas hissə

### Ədəbiyyatların təhlili

Regionların sosial-iqtisadi inkişafının sürətləndirməsi və daxili aqrar bazarının inkişafı bu sahədə dövlət dəstəyini zəruri edir. Ölkəmizin təbii-iqtisadi bölgələri daha çox kənd təsərrüfatı və emal məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Bundan başqa məcmu aqrar-sənaye məhsulları istehsalı birbaşa bölgələrdə formalaşmışdır (Alıyev,2003). Kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfat subyektləri əsasən mikro, kiçik və orta sahibkar qrupuna aid edilir. İnkişaf etmiş və etməkdə olan hər bir dövlətin əsas hədəflərindən biri daxili tələbatı yerli istehsal imkanları hesabına təmin etməkdir. Vətəndaşların ərzaq məhsullarına olan tələbatının yerli imkanlarla ödənilə bilinməsi iqtisadiyyatda baş verən tənəzzül, fövqəladə hadisələr (təbii fəlakətlər istisna olmaqla) və bu kimi başqa mürəkkəb vəziyyətlərdə daha səmərəli hesab olunur (Alıyev,2007). Ölkə iqtisadiyyatı üçün istehsalı baha başa gələn və strateji əhəmiyyət daşımayan məhsulların idxalı daha vacibdir. Müasir qlobal iqtisadi böhranlar dünyanın bir çox ölkələrinin xarici ölkələrdən iqtisadi asılılığını daha da gücləndirmişdir. Artıq bütün dünya ölkələrində əhalinin ərzaqla təminatında kifayət qədər ciddi problemlər müşahidə olunmaqdadır. Nəzərə almaq lazımdır ki, ərzaq problemi bir tərəfdən ərzaq məhsulları istehsalının artırılması və daxili ərzaq bazarında yerli istehsaldan olan məhsulların xüsusi payının yüksəldilməsini özündə əks etdirir. Bundan başqa digər tərəfdən isə bu məhsulların əhalinin bütün təbəqələrinin əlverişli qiymətlərlə əldə edə bilməsini özündə ehtiva edir (Quliyev,2015).

### Metodologiya

Azərbaycan Respublikasında əhalinin ərzaq məhsullarına olan tələbatının əksər hissəsi yerli istehsal imkanları hesabına təmin olunur. Milli iqtisadiyyatın bütün sahələri ilə yanaşı kənd təsərrüfatında da müxtəlif təsərrüfat formalarının inkişafı üçün əlverişli şəraitin yaradılması bu proseslərdə müsbət rol oynamışdır. Aparılmış təhlillər onu göstərir ki, aqrar sahədə fəaliyyət göstərən sahibkarların gəlirləri milli iqtisadiyyatın digər sahələrində fəaliyyət göstərən sahibkarların gəlirləri ilə müqayisədə daha tez dəyişə bilir. Təbii-iqlim şəraiti, daxili bazarda satiş qiymətlərinin dəyişməsi də bu proseslərə təsir edə bilir (Babayeva,2020). Qeyd olunanları nəzərə alaraq kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlara dövlət tərəfindən maliyyə dəstəyinin həyata keçirilməsi istehsal prosesinin fasiləsizliyinin təminatında mühüm rol oynayır. Son illər Azərbaycanda ÜDM-in həcminin yüksəlməsi regionların inkişafı üçün ayrılan maliyyə vəsaitinin artımına da ciddi təsir göstərməkdədir. İnvestisiya qoyuluşlarının kənd təsərrüfatı sahəsində ixtisaslaşmış rayonlar üzrə payının artırılması aqrar sektorun inkişafına da əhəmiyyətli təsir edə bilir. Təbii ki, regionlarda kənd təsərrüfatında milli iqtisadiyyatın digər sahələri ilə müqayisədə istehsal sahəsində risk amilinin yüksək olmasını da nəzərə almaq lazımdır (Abdullayev, 2020). Ölkəmizdə kənd təsərrüfatının inkişafı üçün dövlət tərəfindən məqsədyönlü tədbirlər uğurla davam etdirilir. Lakin, bu sahədə bəzi problemlər hələ də qalmaqdadır. Belə ki, regionlarda kənd təsərrüfatı sahəsində sığorta sisteminin yüksək səviyyədə olmaması bu sahənin inkişafına mənfi təsir edən amillərdəndir. Kənd təsərrüfatının inkişafının təmin olunmamasında və ÜDM-də onun payının artırılmasında təkmil sığorta sisteminin olması zəruridir. Son dövrlər ölkəmizin kənd təsərrüfatı sahəsinin inkişafının əsas perspektivlərinin təmin edilməsinə istiqamətlənmiş tədbirlərin daha səmərəli həyata keçirməsi çox müsbət haldır. Məqalədə bir çox xarici ədəbiyyatlara, statistik hesabatlara, elmi informasiya mənbələrinə istinad olunaraq təhlillər aparılmışdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə və müzakirələr**

**Azərbaycanda kənd təsərrüfatı sahəsində iqtisadi vəziyyətin müqayisəli tədqiqi**

Kənd təsərrüfatının innovasiyalı texnologiyaların tətbiqi əsasında moderinləşdirilməsi, maliyyələşmə mexanizminin təkmilləşdirilməsi vacib məsələlərdəndir. Bütün bunları nəzərə alaraq aqrar sahədə mövcud olan çatışmazlıqların aradan qaldırılması vacibdir. Məhz bundan sonra milli iqtisadiyyatın bu mühüm sahəsində istehsalın intensivliyinin, rəqabətqabliyyətinin yüksəldilməsi təmin oluna bilər. Eyni zamanda kənd təsərrüfatı sahəsi üzrə ixrac imkanlarının genişlənməsinə və ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasna əlverişli şərait yarana bilər.

**Şəkil 1.**

**Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulunun həcmi (mln.manat)**




Mənbə: ARDSK-nin son illər üzrə statistik məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.



Azərbaycan Respublikasına kənd təsərrüfatı sahəsi üzrə istehsal olunmuş ümumi məhsul həcmində də ciddi dəyişikliklər müşahidə olunmuşdur. 2016-cı ildə istehsal olunmuş məhsul həcmi 5632,4 mln.manat olmuşdur (şəkil 1). 2018-ci ildə bu göstərici artaraq 7010 mln.manat, 2020-ci ildə isə 8427,9 mln.manat təşkil etmişdir. Ölkədə kənd təsərrüfatı sahəsi üzrə davamlı olaraq ilbəil məhsul istehsal həcmi artmaqdadır. Bunun da əsas səbəbi kənd təsərrüfatı sahəsində aparılan iqtisadi siyasətin uğurla həyata keçirilməsidir.

**Şəkil 2.**

**Kənd təsərrüfatı sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyalarin dəyişən dinamikası (mln.manat)**




Mənbə: ARDSK-nin son illər üzrə statistik məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Azərbaycan Respublikası üzrə 2015-2020-ci illərdə kənd təsərrüfatı sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmində də ciddi dəyişikliklər qeydə alınmışdır (şəkil 2). Belə ki, əgər 2015-ci ildə bu göstərici 355,4 mln.manat olmuşdursa, 2017-ci ildə isə 617,8 mln.manat təşkil etmişdir. 2020-ci ildə isə kənd təsərrüfatı sahəsi üzrə əsas kapitala yönəldilmiş investisiyalar azalaraq 520,6 mln.manat olmuşdur. Bütün bunlar ölkəmizdə aqrar sahədə müasir innovasiyaların tətbiqinə ciddi təsir etmişdir. Bazar iqtisadiyyatı şəraitiində regionlarda aqrar sferada sahibkarlıq fəaliyyətini məhdudlaşdıran amillərin aradan qaldırılması zəruridir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Cədvəl 1.**

**Ölkədə fəaliyyətdə olan sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü**

| | Cəmi | Mikro | Kiçik | Orta |
|---|---|---|---|---|
| **Respublika üzrə** | 271304 | 262622 | 5956 | 2726 |
| **Bakı ş.** | 129989 | 124317 | 4026 | 1646 |
| **Abşeron iqtisadi rayonu** | 22786 | 22236 | 365 | 185 |
| **Gəncə-Qazax iqtisadi rayonu** | 24825 | 24374 | 290 | 161 |
| **Şəki-Zaqatala iqtisadi rayonu** | 13327 | 13055 | 164 | 108 |
| **Lənkəran iqtisadi rayonu** | 13653 | 13421 | 151 | 81 |
| **Quba-Xaçmaz iqtisadi rayonu** | 11270 | 11047 | 140 | 83 |
| **Aran iqtisadi rayonu** | 37403 | 36664 | 480 | 259 |
| **Yuxari Qarabağ iqtisadi rayonu** | 4287 | 4178 | 73 | 36 |
| **Kəlbəcər-Laçın iqtisadi rayonu** | 381 | 350 | 24 | 7 |
| **Dağlıq Şirvan iqtisadi rayonu** | 5937 | 5822 | 75 | 40 |
| **Naxçıvan Muxtar Respublikası** | 7446 | 7158 | 168 | 120 |

Mənbə: ARDSK-nin son illər üzrə statistik məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.



Azərbaycan üzrə üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı son illər artmaqdadır. 2019-cu ildə bu göstərici 271304 olmuşdur. Ümumi strukturun 262622-si mikro, 5956-sıi kiçik, 2726-si orta sahibkarlıq subyektlərinin payına düşmüşdür (Cədvəl 1). Yalnız Bakı şəhəri üzrə sabikarlıq subyektlərinin sayı 129989 təşkil etmişdir. Ümumi strukturun 124317-si mikro, 4026-sı kiçik, 1646 –sı orta sahibkarlıq subyektlərinin payına düşmüşdür. Nəzərə almaq lazımdır ki, sahibkarlıq subyektlərinin sayı Gəncə-Qazax iqtisadi rayonu üzrə 24825, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 13327, Lənkəran iqtisadi rayonu üzrə 13653, Quba-Xamaz iqtisadi rayonu üzrə 11270. Aran iqtisadi rayonu üzrə bu göstərici 37403, Yuxarı-Qarabağ iqtisadi rayonu üzrə 4287, Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə 381, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 5937, Naxıvan Muxtar Respublikası üzrə 7446 təşkil etmişdir. Aparılmış təhlilə əsasən demək olar ki, son illər sahibkarlıq fəaliyyəti regionlarda daha da genişlənməkdədir.

**Müasir iqtisadi şəraitdə kənd təsərrüfatı sahəsinin inkişaf istiqamətlərinin qiymətləndirilməsi**

Kənd təsərrüfatına dövlət müdaxiləsinin elmi baxımdan əsaslandırılmış səviyyədə həyata keçirilməsi zəruridir. Regionlarda aqrar sahibkarlığın inkişafında tənzimlənən qiymət mexanizminin rolu düzgün qiymətləndirilməlidir. Regionlarda ərzaq məhsulları bazarında qiymətlərin səviyyəsnin dəyişməsi bir sıra amillərdən asılıdır. Azərbaycan Respublikasında aqrar sahədə fəaliyyət göstərən sahibkarların qarşılaşdırları zərəri aradan qaldırmaq üçün dövlət paritet qiymətləri dəstəkləməlidir. Aqrar sahə üzrə dövlət himayəsinin təsiri istiqaməti kimi idxalın strukturunun təkmilləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Bəzən kənd təsərrüfatı məhsullarının idxalı göstəricilərini deyil, həmçinin onların istehsalı üçün zəruri olan texniki və digər vasitələrin idxalı vəziyyətinin də yenidən təhlil olunması vacibdir. Azərbaycanda daxili aqrar-ərzaq bazarının qorunması kənd təsərrüfatı və onunla sıx qarşılıqlı əlaqədə olan digər iqtisadi sahələrin inkişaf imkanlarından birbaşa asılıdır. Ölkəmizdə daxili aqrar bazarın qorunması istiqamətində həyata keçirilməli tədbirlərdən biri də beynəlxalq təşkilatlarla əlaqələrin artırılmasıdır. Bu məqsədlə Ümumdünya Ticarət Təşkilatı (ÜTT) ilə

qarşılıqlı faydalılığa əsaslanan münasibətlərin yaradılması Azərbaycan Respublikası üçün strateji baxımdan çox vacibdir. Daxili aqrar bazarın qorunması üçün idxal məhsulları ilə bərabər şəraitdə mübarizə aparmaq üçün yerli istehsalçıların fəaliyyəti himayə edilməlidir. Bu məqsədlə mümkün iqtisadi vasitələrdən düzgün istifadə olunmalıdır. Daxili aqrar bazarının fəaliyyətinin qorunmasında gömrük tənzimlənməsi də mühüm rol oynayır. Ona görə də gömrük rüsumlarının (antidempinq və kompensasiya rüsumları da daxil olmaqla) səmərəli tətbiqi səviyyəsinin müəyyənləşdirilməsi üçün ciddi təhlillərin aparılması zəruridir (Volqina,2020). Ölkəmizdə aqrar sahədə fəaliyyət göstərən sahibkarların fəaliyyətinin səmərəliliyi və həyata keçirilməli olan iqtisadi prioritetlər arasında birbaşa əlaqə vardır. Ümumiyyətlə, kənd təsərrüfatında bu prioritetlər, ilk növbədə ərzaq təhlükəsizliyinin təmin olunması hesab olunur. Lakin, nəzərə almaq lazmdır ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ərzaq probleminin həlli təkcə kənd təsərrüfatı sahəsinin inkişafı ilə əlaqəli deyildir (Serova, 1999). Bəzi hallarda xarici ölkələrdən idxal olunan ərzaq məhsullarının keyfiyyəti çox aşağı olur. Lakin, bu halda belə idxal olunan ərzaq məhsulları aşağı satış qiymətləri hesabına bazarda davamlı mövqedə qala bilir. Ölkə vətəndaşlarının müvafiq istehlak strukturunun yaxşılaşdırılması, o cümlədən fizioloji normalarının daha tam ödənilməsini vacibdir. Azərbaycan Respublikasında son illər ölkə vətəndaşlarının xərclərində ərzaq məhsullarına xərclənən vəsaitlərin xüsusi çəkisinin azalması tendensiyası müşahidə olunmaqdadır. Məhz buna görə də adambaşına ərzaq alınmasına yönələn xərclərin xüsusi çəkisinin azalması həyat səviyyəsinin yüksəlməsinin mühüm göstəricisi kimi qəbul olunur. Bundan başqa ərzaq məhsullarının istehsalında idxalın payının azalmasıda təmin olunmalıdır.

**Nəticə**

Müasir kənd təsərrüfatının rəqabətqabiliyyətinin yüksəldilməsinə üstünlük verilməsi əhəmiyyətli məsələlərdəndir. Daxili bazarda kənd təsərrüfatı məhsulları üzrə təklifin azalması nəticəsində yaranmış çatışmamazlıq idxal malları hesabına ödənməlidir. İdxal olunan kənd təsərrüfatı məhsullarının yerli məhsullara nisbətən ucuz başa gəlməsi və satılması daxili bazarda daha çox qiymətləri stabil saxlayır. Kənd yerlərində infrastruktur sahələrinin inkişaf etdirilməsi aqrar bölmədə sahibkarlıq fəaliyyətinin səmərəliliyini yüksəldən amillərdəndir. Regionlarda aqrar sahibkarlığın inkişafı istiqamətində baş verəcək dəyişikliklər istehsal, emal, xidmət və satış sferalarının bir-biri ilə sıx əlaqəsini təmin etməlidir. Bunlar olmadığı halda iqtisadi rayonlar üzrə aqrar sahibkarlar tərəfindən rəqabətqabiliyyətli məhsul istehsal etmək, eyni zamanda daxili bazarda satış mövqeyini stabil saxlamaq və ixrac yönümlü aqrar məhsul istehsalını genişləndirmək mümkün deyildir.

**Ədəbiyyat**

1. Verdiyev Ə. (2000). Aqrar bazarın formalaşmasının iqtisadi problemləri”. Bakı, 258s.
2. Alıyev İ. (2007). Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı, Elm, 400 s.
3. Alıyev İ. (2003) Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi, Bakı, Elm, 360 s.
4. Aliyev. İ. (2007) Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri, Bakı: Elm, 227 s
5. Quliyev E. (2015) Aqrar iqtisadiyyat. Baki.: Kooperasiya nəşr., 320 s.
6. Babayeva V. (2020) Aqrar sahənin innovasiyali inkişafinin prioritet istiqamətləri / Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, Bakı: Elm, № 4 (34) s.77-81
7. Abdullayev K. (2020) Müasir iqtiadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin olunmasının əsas istiqamətləri“İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər”. Beynəlxalq elmi konfrans (8-9 iyul 2020-ci il) Sumqayıt Dövlət Universiteti. Sumqayıt.: SDU nəşr., s. 455-459
8. Волгина Н. (2010) Международная экономика, Москва.: Эксмо, 480 с.
9. Серова Е. (1999) Аграрная экономика. М.: ГУВШЭ, 495 с.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Азаде Кадыр кызы Новрузова***

***Основные перспективы развития сельского хозяйства в современных экономических условиях***

***Аннотация***

*Статья посвящена основным перспективам развития сельского хозяйства в Азербайджане. В статье рассматриваются современное состояние сельского хозяйства в нашей стране, роль государства в регулировании этой сферы, изменяющаяся динамика инвестиций в основной капитал в сфере сельского хозяйства и направления устойчивого развития этой сферы, повышение конкурентоспособности анализируемой отрасли, обеспечение продовольственной безопасности и др. вопросы были изучены в сравнительном случае. В результате проведенного анализа были выявлены проблемы, препятствующие развитию сельскохозяйственной сферы в Азербайджане, указаны пути их устранения. Основной целью исследования является определение основных перспектив развития сельскохозяйственной отрасли в нашей стране. Практическая значимость статьи заключается в том, что путем проведения статистического, сравнительного анализа основных показателей, зафиксированных в деятельности сельскохозяйственной отрасли нашей страны за последние годы, необходимо определить существующие проблемы, пути их решения, обосновать необходимость повышения регулирующей роли государства в сфере сельского хозяйства и продовольственной безопасности. Основными новшествами исследования являются повышение эффективности государственного регулирования в сфере сельского хозяйства, облегчение доступа производителей сельскохозяйственной продукции на рынки, привлечение частных инвестиций стимулирующими средствами по регионам, совершенствование аграрной политики и др.*

***Ключевые слова:*** *инвестиции, аграрная экономика, механизм регулирования, аграрная сфера, сельское хозяйство, продовольствие, экономическая помощь*

***Azade Kadir Novruzova***

***The main prospects for the development of agriculture in modern economic conditions***

***Annotation***

*The article is devoted to the main prospects for the development of agriculture in Azerbaijan. The article examines the current state of agriculture in our country, the role of the state in regulating this sphere, the distribution of micro, small and medium-sized businesses by economic regions, the changing dynamics of fixed capital investments in agriculture and the directions of sustainable development of this sphere, increasing the competitiveness of the analyzed industry, ensuring food security, etc. the questions were studied in a comparative case. As a result of the analysis, the problems hindering the development of the agricultural sector in Azerbaijan were identified, and ways to eliminate them were indicated. The main purpose of the study is to determine the main prospects for the development of the agricultural sector in our country. The practical significance of the article lies in the fact that by conducting a statistical, comparative analysis of the main indicators recorded in the activities of the agricultural sector of our country in recent years, it is necessary to identify existing problems, ways to solve them, justify the need to increase the regulatory role of the state in the field of agriculture and food security. The main novelty of the study are increasing the efficiency of state regulation in the field of agriculture, facilitating access of agricultural producers to markets, attracting private investment by stimulating means by regions, improving agricultural policy, and etc.*

***Keywords:*** *investments, agricultural economy, regulatory mechanism, agricultural sector, agriculture, food, economic assistance*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 18.02. 2022.***
***Çapa qəbul olunub: 24.02.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*